BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2006*

# YUBİLEY

## AZƏRBAYCAN KİTABXANAŞÜNASLIĞININ BANİSİ

*(Abuzər Alı oğlu Xələfov - 75)*



XX əsrin II yarısında Azərbaycan xalqının yetişdirdiyi alim və ziyalılar nəslinin görkəmli nümayəndələrindən biri Abuzər Alı oğlu Xələfovdur.

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, A.A.Xələfov 1931-ci ildə Qərbi Azərbaycanda anadan olmuş, 1950-ci ildən öz həyatını Bakı Dövlət Universiteti ilə bağlamışdır.

1950-ci ildə universitetin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olan A.Xələfov, tələbəlik illərində əla oxuması və fəal ictimai fəaliyyəti ilə əlaqədar 1955-ci ildə təhsilini bitirdikdən sonra müəllimlik vəzifəsində saxlanılmışdır.

1962-ci ildə A.Xələfovun fəal iştirakı ilə universitetin kitabxanaçılıq şöbəsinin bazasında müstəqil fakültə yaranır və o, fakültənin ilk dekanı seçilir. A.Xələfov 25 il ərzində bu fakültənin dekanı olmuş, 1963-cü ildən bu vaxta qədər isə kitabxanaşünaslıq kafedrasının müdiri vəzifəsində çalışır.

1961-ci ildə Azərbaycanda kitabxana işi üzrə ilk namizədlik dissertasiyası, 1975-ci ildə isə ilk doktorluq dissertasiyası müdafiə etməklə respublikada kitabxanaşünaslıq elminin yaranması və inkişafı Abuzər Xələfovun adı ilə bağlanmışdır.

Onun 55 illik zəngin yaradıcılıq yolu ölkəmizin elmi ictimaiyyəti, mədəniyyət və təhsil sahəsində çalışanların dərin rəğbətini qazanan görkəmli alim, müəllim, vətəndaş və fəal içtimaiyyətçinin keçdiyi şərəfli yoldur.

Respublikada kitabxanaçılıq fəaliyyətinin və kitabxanaşünaslıq fikrinin əksər mühüm və əlamətdar hadisələri, müasir nailiyyətləri bu alim, pedaqoq və vətəndaşın adı ilə möhkəm bağlıdır.

Professor Abuzər Xələfovun elmi irsi zəngin və rəngarəngdir. Onun elmi tədqiqatlarının nəticələri öz əksini 250 adda monoqra-

fiya, kitab, dərslik, dərs vəsaiti, elmi məqalələr və məruzələrdə tapmışdır. O, elmi yaradıcılığa keçən əsrin 50-ci illərində başlamış, ilk tədqiqatları Azərbaycanda çoxəsrlik kitabxana tarixi və nəzəriyyəsi problemləri ilə əlaqədar olmuşdur. A.Xələfovun XX əsrin 50-60-cı illərindəki tədqiqatçılıq fəaliyyətinin xarakterik cəhəti Azərbaycanda kitabxanaların yaranmasının tarixi köklərinin, cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin sosial funksiyalarının nəzəri və metodiki əsaslarının müəyyənləşdirilməsinə yönəlmişdi. Bu dövrdə onun yazdığı «Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)», «Azərbaycanda kitabxana işinin tarixindən (1920-1932)», «Kitabxana fondunun təşkilinin bəzi məsələləri» adlı monoqrafik əsərlərində, həmçinin çoxsaylı məqalələrində ölkəmizdə kitabxanaların meydana gəlməsi tarixi, müasir dövrdə əhaliyə kitabxana xidmətinin məqsəd və vəzifələri, kitabxanaçılıq təhsili problemləri işıqlandırılmış, cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin inkişafının elmi-nəzəri istiqamətləri müəyyənləşdirilmişdir.

A.Xələfovun keçən əsrin 70-80-cı illərində apardığı tədqiqatların başlıca məqsədi bir tərəfdən Azərbaycanda kitabxana tarixinin işlənməsinin xronoloji çərçivəsini genişləndirmək, digər tərəfdən isə ölkədə kitabxana işinin nailiyyətlərini, yeni keyfiyyətlərini üzə çıxarıb ümumiləşdirmək, kitabxanaşünaslıq nəzəriyyəsinin aktual problemlərini işıqlandırmaqdan ibarət olmuşdur. Bu baxımdan onun «Azərbaycanda kitabxana işinin tarixindən (1933-1958)», «Azərbaycanda kitabxana işinin tarixindən (Qədim dövrlərdən XVIII əsrin axırlarınadək)», «Kitabxana işçisinin məlumat kitabı», «Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı» kimi monoqrafik əsərləri öz orijinal keyfiyyətləri ilə seçilir. Belə əsərlər içərisində A.Xələfovun 1975-ci ildə müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil etmiş «Azərbaycanda kitabxana işinin tarixindən (1933-1958)» monoqrafiyası xüsusilə səciyyəvidir. Burada, elmi dövriyyəyə ilk dəfə daxil edilən çoxsaylı faktlar əsasında XX əsrin 30-50-ci illərində «Azərbaycanda kitabxana işinin inkişaf mərhələləri və xüsusiyyətləri, ölkəmizin mədəni-mənəvi və elmi-texniki tərəqqisində kitabxanaların iştirakı sistemli şəkildə təhlil edilmiş, əhaliyə kitabxana xidmətində qazanılmış nailiyyətlər və həll edilməmiş problemlər ümumiləşdirilmiş, qarşıdakı vəzifələr müəyyənləşdirilmişdir. Heç də təsadüfi deyil ki, bu əsər respublika və keçmiş SSRİ-nin tanınmış alimləri və kitabxanaşünaslıq mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bunların içərisində akademik M.A.Dadaşzadəni, EA-nın müxbir üzvü Z.İbrahimovu, professor A.Atakişiyevi, professor H.İmanovu, tanınmış Rusiya alimlərindən Əməkdar Elm xadimi, professor K.İ.Abramovu, A.Y.Çerniyakı və b. göstərmək olar.

Abuzər Xələfovun bu illərdəki elmi-tədqiqat fəaliyyətində kitabxana işinin nəzəri-metodoloji problemləri, eləcə də kitabxanaçılıq təhsili və kadr hazırlığı məsələləri xüsusi yer tutur. Onun 80-ci illərdə yazdığı kitab və çoxsaylı məqalələrində əhaliyə kitabxana xidmətinin müasir problemləri kitabxanaların elmi-metodiki fəa-

liyyəti, müxtəlif kitabxana sistemləri və şəbəkələrinin, o cümlədən
mərkəzləşdirilmiş kitabxana sistemlərinin müvəffəqiyyət və nöq-
sanları göstərilir. Bu illərdə Xələfovun diqqət yetirdiyi mühüm
problemlərdən biri də Azərbaycanda kitabxanaçılıq təhsilinin ya-
ranma tarixi və təkmilləşdirilməsi məsələləri olmuşdur. Onun
1987-ci ildə «Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı» və
1998-ci ildə nəşr edilmiş «Azərbaycanda ali kitabxanaçılıq təhsili»
adlı monoqrafiyalarında XX əsrin 20-ci illərindən başlayaraq Azər-
baycanda kitabxanaçılıq təhsilinin meydana gəlməsi, orta və ali ki-
tabxanaçılıq təhsili sisteminin inkişaf mərhələləri işıqlandırılmış,
müasir tələblərə cavab verən kitabxanaçı-biblioqraf təhsilinin for-
malaşmasının mühüm istiqamətləri əsaslandırılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının tarixi-
nin müstəqillik dövrü Abuzər Xələfovun elmi-pedaqoji fəaliyyətin-
də keyfiyyətcə yeni mərhələ təşkil edir. Bu baxımdan, onun 90-cı
illərdə yazdığı bir sıra konseptual xarakterli məqalələrində ölkə-
mizin müstəqilliyi şəraitində kitabxanaların və kitabxanaşünaslı-
ğın inkişaf yolları müəyyənləşdirilmiş, informasiya əsri adlandırı-
lan XXI əsrdə cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin yeni keyfiy-
yətlərinin nəzəri əsaslarını yaratmağa müvəffəq olmuşdur. Bu dövr-
də onun yazdığı məqalələrin mühüm bir hissəsi ümummilli lideri-
miz Heydər Əliyevin nəzəri irsinə, bu irsin təbliğinə, həmçinin ulu
öndərin Azərbaycanda kitabxana işinin inkişafındakı müstəsna
xidmətlərinin araşdırılmasına həsr edilmişdir.

XXI əsrin əvvəllərində Abuzər Xələfov bütövlükdə Azərbay-
can elmi və mədəniyyətini, milli kitabxanaşünaslıq fikrimizi xeyli
zənginləşdirən bir sıra fundamental monoqrafiyalar yaratmağa mü-
vəffəq olmuşdur. 2001-2006-cı illərdə onun qələminin məhsulu
olan 2 cildlik «Kitabxanaşünaslığa giriş», «Azərbaycanda kitabxa-
na işinin tarixi (Qədim dövrlərdən XX əsrə qədər)» adlı dərslikləri,
həmçinin «Heydər Əliyev: biblioqrafik məlumat kitabı», «Heydər
Əliyev və Azərbaycanda kitabxana işi», nəhayət XXI əsrin əvvəllə-
rində «Azərbaycanda kitabxana işinin əsas istiqamətləri» adlı san-
ballı tədqiqat əsərləri III minilliyin əvvəllərində Azərbaycanda ki-
tabxanaşünaslıq elminə verilmiş ən qiymətli töhfələrdir. Bu əsərlər
ölkəmizdə kitabxana işinin inkişafı üçün əlindən gələni əsirgəməy-
ən, enerjisini bütövlükdə xalqının mədəni tərəqqisinə həsr edən
Abuzər Xələfovun son illər ərzində gərgin və səmərəli elmi fəa-
liyyəti haqqında aydın təsəvvür yaradır.

Abuzər Xələfovun tədqiqatçılıq fəaliyyəti həmişə onun peda-
qoji və təşkilatçılıq fəaliyyəti ilə də sıx əlaqədə olmuşdur. Geniş bi-
liyi, zəngin təcrübəsi, yeniliyə marağı ona Azərbaycanda və ölkə-
mizdən kənarlarda çoxlu dissertasiya işlərinə elmi rəhbərlik və rəs-
mi opponentliyə zəmin yaratmışdır. Onun rəhbərliyi ilə kitabxana
işinin tarixi və müasir problemlərinə həsr edilmiş, 20-dən artıq
dissertasiya müdafiə edilmişdir. Bu gün bizim Abuzər Xələfovun
yaratdığı kitabxanaşünaslıq elmi məktəbi haqqında danışmağa tam
haqqımız var. Bu məktəbin nümayəndələri hazırda BDU-nun Ki-

tabxanaçılıq-informasiya faкültəsində respubliкanın elmi кitabxanalarında və digər mədəni-maarif və informasiya müəssisələrdə səmərəli fəaliyyət göstərirlər. A.Xələfov deməк olar кi, bütün müasir кitabxanaçılar nəslinin müəllimi olmuşdur.

A.Xələfov özünün elmi-pedaqoji fəaliyyətinin bütün dövrlərində fəal ictimai və təşкilati işlərlə məşğul olmuşdur. Yalnız Azərbaycanın müstəqilliyi dövründə onun təşəbbüsкarlığı və fəal iştiraкı ilə meydana gəlmiş «Kitabxana işi haqqında» Azərbaycan Respubliкasının Qanunu, «Kitabxanaçılar Cəmiyyəti», «Kitabxana işinin кompüterləşdirilməsi ETL», «Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, кitabşünaslıq» ixtisasları üzrə rəsmi dövlət sənədləri, BDU – redaкsiya-nəşriyyat şurası bu qənaəti təsdiq edən faкtlardır. Hazırda o, BDU-nun Elmi Şurasının, Respubliкa Təhsil Komissiyasının üzvü, Təhsil Nazirliyi Elmi Metodiк Şurasının «Kitabxanaşünaslıq-biblioqrafiya» bölməsinin sədri, BDU «Redaкsiya-Nəşriyyat Şurasının sədri», «Veteranlar Şurasının sədr müavinidir».

A.A.Xələfovun elm, mədəniyyət və təhsilin inкişafındaкı xidmətləri dövlətimiz tərəfindən yüкsəк qiymətləndirilmişdir. O, müxtəlif illərdə orden və medallarla, fəxri fərman və nişanlarla təltif edilmiş, «Əməкdar Mədəniyyət İşçisi» fəxri adını almışdır.

Ümummilli liderimiz Heydər Əliyevin fərmanları ilə A.A.Xələfov 2000-ci ildə «Şöhrət» ordeni ilə təltif edilmiş, 2001-ci ildə isə «Əməкdar elm xadimi» fəxri adına layiq görülmüşdür.

Professor A.A.Xələfov Beynəlxalq miqyasda tanınmış bir alim кimi 2001-ci ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Aкademiyasının həqiqi üzvü seçilmiş, 2002-ci ildə «Kim кimdir» nominantı olmuş həmin institutun «Qızıl medalı» ilə təltif edilmişdir.

Nəticə etibarilə qeyd etməк istərdiк кi, prof. Abuzər Alı oğlu Xələfovun elmi və təşкilatçılıq fəaliyyəti Kitabxanaçılıq-informasiya faкültəsi miqyasından çox кənara çıxmışdır. O, son 50 il ərzində doğma universitetimizin bütün ümdə problemlərinin həllində alim, pedaqoq və vətəndaş кimi həmişə ön sırada olmuş və bu gün də olmaqdadır.

Biz əminiк кi, prof. Abuzər Xələfov hələ uzun illər Azərbaycanın dövlətçiliyinə, xalqımızın elm, mədəniyyət və təhsilinə layiqincə xidmət göstərəcəкdir.

**R.Ə.Kazımov**
**p.e.n., dosent**

**Baкı Dövlət Universitetinin rəhbərliyi, «Baкı Universitetinin xəbərləri»nin redaкsiya heyəti görкəmli alim, Əməкdar Elm xadimi, tarix elmləri doкtoru, professor Abuzər Alı oğlu Xələfovu 75 illiк yubileyi münasibətilə təbriк edir, ona uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayır.**